**2020-ci il üçün Bank Ombudsmanı fəaliyyəti haqqında**
**HESABAT**

Bank Ombudsmanı banklarla onların fiziki şəxs müştəriləri arasında yaranan mübahisələrin araşdırılması üzrə Azərbaycan Banklar Assosiasiyasının nəzdində artıq 4 ilə yaxındır müstəqil olaraq fəaliyyət göstərən orqandır. Əsas məqsədimiz banklar və fiziki şəxslər arasında müqavilələrin bağlanması, dəyişdirilməsi, icrası və ya xitam verilməsi ilə bağlı yaranan hüquqi və mülki mübahisələrin məhkəməyə müraciət etmədən aradan qaldırılması, insanların bank sisteminə etimadının gücləndirilməsi və əhalinin maarifləndirilməsidir.

Hazırda ABA-ya üzv olan banklarla onların müştəriləri - fiziki şəxslərlə əlaqədar mübahisələrin baxılmaq üçün Bank Ombudsmanına verilməsi haqqında Bəyannamə 23 bank və 2 bank olmayan kredit təşkilatları tərəfindən imzalanmış və digər banklarla bu istiqamətdə danışıqların aparılmaqdadır. 2020-ci il ərzində 4 bankın lisenziyası ləğv edildiyi üçün bəyannaməyə xitam verilmişdir.

2020-ci ildə Bank Ombudsmanının fəaliyyəti dövründə 55 müraciət daxil olmuşdur. Müraciətlər üzrə, 16 qərar verilmiş və 9 Barışıq sazişi imzalanmışdır. Daxil olan müraciətlərin əksəriyyəti Bank Ombudsmanının səlahiyyətlərinə aid olmadığı üçün aidiyyatı üzrə göndərilmişdir.

27 yanvar 2020-ci il tarixində Bank Ombudsmanı Dünya Bankının dəstəyi ilə ölkəmizdə mediasiya üzrə pilot layihəsinin həyata keçirilməsi üçün ekspertlər – Rumuniyanın “AG” şirkətinin mediatoru cənab Contantin–Adi Gavrila, Mübahisələrin alternativ həlli üzrə müstəqil ekspert - mediator Ruslan Mirzəyev ilə görüş keçirilmiş və gələcək planlar müzakirə edilmişdir.

Mediasiya fəaliyyətində Bank Ombudsmanının üzərinə düşən vəzifələr ilə bağlı digər qurumlara işlərin aparılması və Qanuna əsasən müvafiq tədbirlərin görülməsi istiqamətində işlər aparılmışdır. Belə ki, 2020-ci ilin 13 oktyabr tarixindən 3 noyabr tarixinə kimi Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası tərəfindən Mediatorların ilkin hazırlığı üzrə növbəti təlimində bank Ombudsmanının Məsul katibi Elçin Həsənov iştirak etmiş və müvafiq Sertifikata layiq görülmüşdür.

Dünya təcrübəsinə əsasən, Bank Ombudsmanı fəaliyyətinin hüquqi çərçivəyə salınması və onun fəaliyyətinin səmərəliyinin artırılması məqsədi ilə Banklar haqqında Qanunda belə bir fəsilin salınması istiqamətində Mərkəzi Bank ilə müvafiq işlər görülmüşdür.